# Qaradağ rayonu Qobustan qəsəbəsində YAP fəalları ilə görüş keçirilib





**Dünən Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən 74 saylı Ərazi Partiya Təşkilatının (223 №-li tam orta məktəb) fəalları ilə görüşüb.**

Görüşdə Qaradağ rayon İcra Hakimiyyəti başçısının Qobustan qəsəbəsi üzrə nümayəndəsi Tarverdi Qurbanov, 223 №-li tam orta məktəbin YAP üzvü olan müəllimləri, bitərəflər də iştirak ediblər.

Tədbiri açan məktəbin direktoru Aynurə Qurbanova bildirib ki, YAP fəalları ilə təşkil edilən belə görüşlər xüsusi əhəmiyyət daşıyır. Belə ki, YAP-ın rayon təşkilatının rəhbərliyinin partiyanın sıravi üzvləri ilə görüşməsi, ölkəmizin həyatında və dünyada baş verən son hadisələr barədə onları məlumatlandırması, YAP üzvlərinin qarşılaşdığı problemləri öyrənməsi, onları dinləməsi və qaldırılan problemlərin müvafiq qurumların diqqətinə çatdırılması ƏPT və partiya üzvləri ilə işin daha səmərəli təşkilinə kömək edəcək.







Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev cari ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladıb. O, bildirib ki, xalqımızın Ulu öndərin siyasi kursunu daim dəstəkləməsi və Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi nəticəsində cari ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam və qəti şəkildə bərpa olunub. Q.Əliyev ölkəmizdə və regionda baş verən son hadisələr, Azərbaycanın Qarabağda apardığı lokal antiterror əməliyyatının mahiyyəti, YAP-ın VII qurultayından sonrakı dövrdə partiyada aparılan islahatlar, Azərbaycan Prezidenti, YAP sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, İkinci Qarabağ - Vətən Müharibəsində əldə olunmuş Böyük Qələbənin əhəmiyyəti, Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq və bərpa işləri, uğurla davam etdirilən Böyük Qayıdış və digər məsələlərdən bəhs edərək partiya üzvlərini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə çağırıb. Görüş iştirakçılarını səmimi söhbətə dəvət edən YAP rayon təşkilatının sədri həmçinin onları baş verən son hadisələrə münasibət bildirməyə, yerli əhalini narahat edən məsələlər barədə açıq danışmağa, qaranlıq qalan məsələlər haqda suallar verməyə dəvət edib.

Görüş iştirakçıları YAP Qaradağ rayon təşkilatı sədrinin çıxışını diqqətlə dinləyərək toxunulan məsələlər, vurğulanan fikirlərlə razı olduqlarını bildiriblər. Görüş iştirakçıları - Gülnarə Məmmədova, Xatirə Qəniyeva, Aynur Babayeva, Hüsniyyə İsmayılova, Mira Məcidova, Könül Yusifova, İntiqam Babayev, Rəhim Abdullayev və başqaları Prezident İlham Əliyevin yeritdiyi daxili və xarici siyasətdən, Qarabağda aparılan antiterror əməliyyatından tam razı qaldıqlarını, istənilən an dövlətimizin başçısının ətrafında bir yumruq kimi birləşməyə hazır olduqlarını və partiya fəalları ilə belə görüşlərin tez-tez keçirilməsinin zəruriliyini bildiriblər. Görüş zamanı partiya üzvləri Qobustan qəsəbəsində bəzi problemləri: gənclərin asudə vaxtının səmərəli keçirilməsi üçün istirahət parklarının daha çox olmasını, işsizlik, sürətli internet,məktəbin yeni tədris korpusunun tikintisinin zəruriliyi, ictimai nəqliyyatın, o cümlədən 195 saylı marşurut xəttində işləyən avtobusların yararsız halda olması və yaxşı işləməməsi, qəsəbədaxili yolların asfaltlaşdırılması və səkilərin qaydaya salınmasının zəruriliyi, qəsəbədə kanalizasiya sisteminin normal işləməməsi, Gənclər evi və uşaqlar üçün fiziki reablitasiya mərkəzinin tikintisinin zəruri olması, yeni yerüstü piyada keçidlərinin tikintisinin vacib olması, tədris prosesini daha yaxşı təşkil etmək üçün müasir ağ yazı lövhələrinin, elektron lövhələrin və digər texniki avadanlıqların alınmasının zəruriliyindən və digər problemlərdən bəhs ediblər.

**Görüşdə irəli sürülən təklif və problemlər qeydə alınıb.**

**Azad RZAZADƏ**